# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında

# Qərar № 131

***Bakı şəhəri, 7 iyul 2005-ci il***

«Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun 31-1-ci, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu və 12-ci və «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 17.4-cü maddələrində göstərilən müddəaların həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. «Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlər» təsdiq edilsin (əlavə olunur).

3. Oğurlanmış və itirilmiş mobil telefonlar və abonentin identifikasiya modulu (Sim kartlar və s.) barədə fiziki və hüquqi şəxslərin təqdim etdiyi məlumatların müvafiq bazada cəmləşdirilməsi, ümumiləşdirilməsi və zəruri hallarda əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat subyektlərinə çatdırılması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən təmin edilsin.

4. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi ilə razılaşdırmaqla, rabitə müəssisələri (operatorlar) tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə nəzərdə tutulması vacib olan məlumatların yazılması qaydalarının qəbul edilməsini, habelə həmin şəxslər haqqında vahid məlumat bazasının formalaşdırılmasının təşkilini və digər məsələlərin həll olunmasını təmin etsin.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 iyul 2005-ci il, № 7, maddə 665) («VneshExpertService» LLC).***

***14 dekabr 2005-ci il tarixli, 226 nömrəli Qərara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*

*2005-ci il 7 iyul tarixli,*
*131 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlər

Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən rabitə müəssisələri (operatorlar) (bundan sonra — rabitə müəssisələri) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı aşağıdakı şərtlərin nəzərə alınması Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən təmin edilsin:

- rabitə müəssisələri tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə və abunəçilərə dair məlumat bazalarında bu şərtlərin əlavəsində göstərilən məlumatların əks olunması;
- rabitə müəssisələri tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə istifadə olunan abonentin identifikasiya modulunun (Sim kartlar və s.) və mobil telefon aparatının başqa şəxslərə daimi istifadə üçün verilməsinə qadağa qoyulmasının əks olunması;
- bağlanılan müqavilədə abonentin identifikasiya modulunun (Sim kartlar və s.) və mobil telefon aparatının oğurlanması və itirilməsi barədə fiziki və hüquqi şəxslər tərəfindən dərhal Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yerli qurumlarının məlumatlandırılması haqqında müvafiq qeydin olması;
- rabitə müəssisələri tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilənin bir nüsxəsinin Azərbaycan Respublikasının dövlət dilində olması və həmin müqaviləyə fiziki şəxsin (hüquqi şəxs tərəfindən bağlanıldığı təqdirdə, istifadə edən fiziki şəxsin) fotoşəkillə olan şəxsiyyətini təsdiq edən sənədinin surətinin əlavə olunması.

---

*Rabitə müəssisələri (operatorlar)*
*tərəfindən rabitə vasitələrinin*
*satışı və istifadəsi zamanı*
*tələb olunan şərtlərə*
***Əlavə***

# Rabitə müəssisələri tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə və abunəçilərə dair məlumat bazalarında nəzərdə tutulması vacib olan

# Məlumatlar

| Sıra №-si | Məlumatın növü | Rabitə xidmətinin növü | Abonentin növü |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1 | Telefonun nömrəsi | telefon, sellular, peycinq, | fiziki, hüquqi şəxslər və |

| | | | |
|---|---|---|---|
| | | radiotrank | dövlət orqanları |
| 2 | Abonentin identifikasiya modulunun parametrləri (İMSİ, MİN və s.) | sellular | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 3 | Mobil telefonun identifikasiya nömrəsi İMEİ (ESN və s.) | sellular | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 4 | Telefonun aktivləşdirmə tarixi (abunə məlumat bazasının doldurulması zamanı) | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 5 | Abonentin (istifadəçinin, məsul şəxsin) adı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 6 | Abonentin (istifadəçinin, məsul şəxsin) soyadı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 7 | Abonentin (istifadəçinin, məsul şəxsin) atasının adı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 8 | Vətəndaşlıq | telefon, sellular, peycinq, radiotrank | fiziki şəxslər |
| 9 | Cinsi* | telefon, sellular, peycinq, radiotrank | fiziki şəxslər |
| 10 | Doğulduğu yer | telefon, sellular, peycinq, radiotrank | fiziki şəxslər |
| 11 | Doğulduğu tarix | telefon, sellular, peycinq, radiotrank | fiziki şəxslər |
| 12 | Azərbaycan vətəndaşının şəxsi identifikasiya nömrəsi (PİN) | telefon, sellular, peycinq, radiotrank | fiziki şəxslər |
| 13 | Sənədin növü* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 14 | Ölkə* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 15 | Respublika rayonu* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 16 | Şəhər* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 17 | Şəhər rayonu* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 18 | Poçt indeksi* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 19 | Küçə* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 20 | Kvartal* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 21 | Ev* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 22 | Mənzil* | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 23 | Hüquqi şəxsin, dövlət | telefon, sellular, peycinq, | hüquqi şəxslər və dövlət |

| | | | |
|---|---|---|---|
| | orqanının adı | radiotrank | orqanları |
| 24 | Hüquqi şəxsin qeydiyyatdan keçdiyi ölkə | telefon, sellular, peycinq, radiotrank | hüquqi şəxslər |
| 25 | VÖEN | telefon, sellular, peycinq, radiotrank | hüquqi şəxslər və dövlət orqanları |
| 26 | Bankın adı | telefon, sellular, peycinq, radiotrank | hüquqi şəxslər və dövlət orqanları |
| 27 | H/hesab nömrəsi | telefon, sellular, peycinq, radiotrank | hüquqi şəxslər və dövlət orqanları |
| 28 | Əlaqə telefonu və ya faks 1 | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 29 | Əlaqə telefonu və ya faks 2 | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 30 | Elektron poçt ünvanı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 31 | Dilerin adı (mobil telefonların satışı zamanı) | sellular | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 32 | Dilerin kodu (mobil telefonların satışı zamanı) | sellular | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 33 | Distribütorun adı (mobil telefonların satışı zamanı) | sellular | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 34 | Distribütorun kodu (mobil telefonların satışı zamanı) | sellular | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 35 | Müqaviləni qəbul edən şəxsin adı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 36 | Müqaviləni qəbul edən şəxsin soyadı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |
| 37 | Müqaviləni qəbul edən şəxsin atasının adı | telefon, sellular, peycinq, radiotrank | fiziki, hüquqi şəxslər və dövlət orqanları |

[*] Məlumatlar bütün rabitə operatorları tərəfindən məlumat bazalarının ümumi formatından və ümumi lüğətdən istifadə edilməklə, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytından götürülür.